**Nizami Məmmədov**
**Magistrant**
**Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti**
E-mail: nizami.memmedov00@gmail.com

# Turizmin regionların inkişafında rolu

**Xülasə:** Azərbaycanda turizmin inkişafı üçün turizm sahəsində inkişaf etmiş ölkələrin təcrübəsindən istifadə daha məqsədəuyğun olardı. Bundan başqa dövlətimizin hazırladığı "Strateji Yol Xəritəsi" və turizm üzrə dövlət proqramları Azərbaycanda turizmin inkişafına böyük təkan verir. Turistləri ölkəyə cəlb etmək və onların daimi səfəri üçün ixtisaslı kadrların hazırlanması, turizm bölgələrinin fəaliyyəti üçün əsas götürülməlidir.

**Açar sözlər:** turizm region, ticarət, inkişaf, muzey.

Azərbaycanda turizm sahəsindəki davamlı inkişafın nəticəsi kimi, peşəkar kadrlara olan ehtiyac da sürətlə artıb. Bu ehtiyacın təmin olunması məqsədilə Azərbaycan Turizm İnstitutu yaradıldı. Ölkəmizdə yeni iş yerlərinin açılması ilə yüksək intellektli mütəxəssislərə tələbat artdıqca, təbii olaraq, ali təhsildə keyfiyyətin əhəmiyyəti də gündəmə gəlir. Ölkənin digər ali təhsil ocaqlarından fərqli olaraq, ATİ tələbələrinin öz nəzəri biliklərini 20 həftəlik istehsalat təcrübəsində möhkəmləndirmək imkanı da mövcuddur. ATİ tələbələrinin əksəriyyəti Türkiyə, İsrail, Şimali Kipr Türk Cümhuriyyəti, Almaniya, Yunanıstanda yay tanışlıq və istehsalat təcrübəsi keçir.

Mədəniyyət və Turizm Nazirliyi tərəfindən yaradılmış "www.azerbaijan.travel" rəsmi milli turizm portalı son illər ərzində daxili və xarici turistlər üçün Azərbaycanın turizm potensialı, o cümlədən təbiəti, turizm infrastrukturu, ictimai nəqliyyat sistemi, ölkəmizin unikal turizm məhsulları, turizm şirkətləri və mehmanxanaları barədə geniş məlumat bazası və təbliğat vasitəsi rolunu oynayıb. Gəlmə turizmi üzrə prioritet sayılan ölkələrdə turizm potensialımızın təbliğ edilməsi məqsədilə alman və rus saytlarında müvafiq elektron banerlər yerləşdirilib.

Ölkə başçısı çıxışlarında mütəmadi olaraq, normativ hüquqi bazanın yenilənməsinə, 2013-cü ildən etibarən digər turizmin inkişaf etmiş ölkələrində olduğu kimi elektron viza sisteminin tətbiq edilməsinə, turizm sahəsində prioritet olan ölkələrin təcrübəsinə əsasən hava limanlarında vizanın verilməsi məsələlərinə diqqət çəkir. Azərbaycan turizm sektoru iqtisadi böhran şəraitində də inkişaf edir və bu il ölkəyə gələn turistlərin sayının ötən ildəkindən çox olacağı gözlənilir. 2016-cı ildə Azərbaycana turist axınının əsasən Rusiyadan, eləcə də İran daxil olmaqla Körfəz ölkələrindən olacağı proqnozlaşdırılır.

Hazırda ölkədə yerli və xarici turistləri qəbul etmək üçün 570 mehmanxana və mehmanxana tipli obyekt fəaliyyət göstərir. Bununla belə, evlərdə qalan turistlərin sayı daha çoxdur. Son illərin təcrübəsi göstərir ki, turistlər daha çox evlərdə qalırlar. Hazırda biz həmin xidməti göstərən vətəndaşlara təlim kurslar keçirir, onlara lazımi biliklər veririk ki, turistlərə yüksək səviyyədə xidmət göstərsinlər. Azərbaycana Avropa ölkələrindən də turist axını güclənməkdədir. Hətta bəzi Avropa ölkələrindən gələn turistlərin sayı ötən ilə nisbətən 20-25% çoxdur. Əvvəlki dövrlə müqayisədə Azərbaycanda dincəlmək xeyli ucuz başa gəlir, bu isə turizm obyektləri arasında rəqabətin güclənməsi ilə bağlıdır. Son bir neçə ildə Azərbaycanda turizm sektorunun inkişafı üçün müəyyən addımlar atılıb. Bu məqsədlə yeni otellər, istirahət mərkəzləri tikilib, xarici turistlərin ölkəyə cəlb edilməsi üçün viza rejimi sadələşdirilib, həmçinin formlar, sammitlər və idman oyunları keçirilib. Əcnəbi turistlərin Azərbaycanda rahat və təhlükəsiz istirahət etmələri üçün tam təminat var.

Turizmin inkişafında ən əsas amillərdən biri kimi infrastrukturun qurulması göstərilir. Ölkəmizin regionlarında bu məsələ get-gedə öz həllini tapır. Azərbaycan Turizm Asossasiyasının sədr müşaviri Müzəffər Ağakərimovun dediklərinə görə bölgələrimizdə qaz, işıq, su, yanacaq və yol problemi həll olunur. “Biz diqqət etsək görərik ki, təxminən 10 il əvvəl ilə müqayisədə infrastrukturla yanaşı eyni zamanda çoxlu sayda yeni turizm tikililəri inşa edilərək istifadəyə verilmişdir. Bütün bu işlər zaman ötdükcə genişlənir. Gəncədə, Mingəçevirdə, Lənkəranda, Balakəndə, Qəbələdə, Nabranda xeyli sayda otel və mehmanxanaların açılması onu göstərir ki, ölkə iqtisadiyyatında turizmə olan maraq ildən ilə artır”. Asossasiyanın təmsilçisi turizmi qeyri-enerji sektorunun lokomativi hesab edilə biləcək sahələrdən biri kimi qiymətləndirir. Turizm həm ekoloji cəhətdən təmiz, həm də yeni iş yerləridir. Regionlarımızda yeni turizm obyektlərinin yaranması vətəndaşların işlə təmin edilərək, əmək qüvvəsinin ölkə daxilindən qırağa çıxmaması deməkdir. Regionlarda turizm obyektlərinin sayı çox olmalı və infrastruktur təkcə ildən-ilə deyil, hətta gündən-günə, aydan-aya inkişaf etdirilməlidir.

Azərbaycana gələn turistlərin təhlükəsizliyinin qorunması üçün ölkədə turizm polisi də yaradılacaq. Dövlət Turizim Agentliyinin turizim siyasəti və strategiya şöbəsinin müdürü Məhəmməd Muradovun dediklərinə görə ölkəmizdə yaradılacaq turizim polisi Turistlərə Yardım Mərkəzinin daxilində olacaq. Bu mərkəz 3 komponenti özündə cəmləşdirir. Birincisi, ölkə boyunca turistlərin zəng edə bilməsi üçün qaynar xəttin olması, ikincisi isə, onlayn internet portalının yaradılmasıdır. Turisti maraqlandıran sual və cavablar mərkəzdə çalışan əməkdaşlar ilə canlı ünsiyət, onlayn kommunikasiya vasitələri ilə çatdırılacaq. Üçüncü məqam isə, məkanla bağlıdır. Bununla bağlı olaraq, Bakıda ofis fəaliyyət göstərəcək. Turizm polisi Daxili İşlər Nazirliyində çalışan

əməkdaşlardan seçiləcək. Bu əməkdaşlar, turistlərə yardım göstərəcək. Bu layihənin tətbiqi üçün ilk mərhələdə 20-30 polis nəfəri seçiləcək. Turistlərin ölkəmizdə daha gözəl vaxt keçirməsi, problemlərdən uzaq olması üçün işlər davam etdirilir.

Bundan başqa, turistlərin ölkəmizə cəlb edilməsi üçün digər ölkələrdə də müəyyən işlər aparılır. Azərbaycanın turizm potensialının tətbiqi, ölkəmizin turizm məhsullarının dünya bazarına çıxarılması üçün satışın təşkili və ölkəmizə turist axınının artırılması üçün müxtəlif dövlətlərdə nümayəndəliklər yaradılır. Hazırki dövrdə Dövlət Turizm Agentliyi 6 ölkədə (Almaniya, BƏƏ, Səudiyə Ərəbistan, Rusiya, Çin, Gürcüstan) turizim nümayəndəlikləri yaradıb. Turizim nümayəndəliklərinin fəaliyyət göstərməsi həm də Azərbaycana dair seminarların, Azərbaycandakı turizim və səyahət şirkətlərinin birgə əməkdaşlıq etmələri üçün görüşlərin keçirilməsi, ölkəmizin beynəlxalq sərgilərdə təmsil olunması üçün dəstəyin verilməsi və koordinasiya işlərinin həyata keçirəcək ikitərəfli əlaqələrin stimullaşmasına xidmət edəcək. Azərbaycan Respublikasında turizm sənayesinin inkişafına yönəlmiş "Strateji Yol Xəritəsi" ində göstərildiyi kimi mövcud olan potensialdan səmərəli istifadə edərək Azərbaycanın 2025-ci ilə qədər həm regionlarda, həm də xarici dünya ölkələri sırasında cəlbedici turizim məkanlarından birinə çevrilməsi üçün ən başlıca hədəflərdən sayılır. 2025-ci ildən sonrakı illər üçün perespektiv isə ölkəmizin dünyada turistlərin ən çox maraq göstərdiyi 20 turizm məkanından birinə döndərmək, mövcud olan turizim ehtiyatlarindan səmərəli istifadəni təmin etməkdir. Azərbaycanın təbii sərvətləri, əlverişli iqlimi, zəngin tarixi turizimin inkişafına və ölkəmizə daha çox cəlb edilməsinə şərait yaradır. Turizim sahəsi təkcə regionların inkişafı deyil, həm də ölkəmizin iqtisadi potensialının daha da möhkəmlənməsinə, Azərbaycanın dünyaya inteqrasiya etməsi üçün çox mühüm vasitədir. Turizmlə əlaqəli olan ölkənin inkişaf strategiyası iqtisadiyyatın daha da güclənməsinə böyük təkan verir.

## Ədəbiyyat:

1. "Azərbaycan Respublikası regionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı" nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı.
2. "Azərbaycan turizmi: mövcud vəziyyət və perspektiv imkanların dəyərləndirilməsi zərurəti", Zaurə Əmirova, 2016, İnteraz.
3. Məmmədov D.A., B. Ə.Bilalov "Azərbaycanda gəlmə turizmi Bakı, 2015. 7.Qurbanov P. Ə., Ş.H.
4. Hüseynova "Turizmin iqtisadiyyatı". Bakı, 2009.
5. Heydərov Ş.Ə.- Turtizmdə nəqliyyat xidmətlərinin təşkili, Bakı-2011

6. Turizm menecmenti – Bahadur Bilalov, Bakı-2005, Mütərcim Nəşriyyatı
7. Turizm – Siyavuş Yeganlı, Emin Hacıyev, Bakı-2006
8. Turizm fəaliyyətinin tənzimlənməsi – Bahadur Bilalov, Bakı-2006

## Роль туризма в развитии регионов

**Резюме**

Для развития туризма в Азербайджане было бы целесообразнее использовать опыт развитых стран в сфере туризма. Кроме того, «Стратегическая дорожная карта» и туристические программы, подготовленные нашим государством, дают большой импульс развитию туризма в Азербайджане. За основу должно быть взято обучение квалифицированных кадров для привлечения туристов в страну и их регулярные визиты, мероприятия в туристических зонах.

**Ключевые слова:** туризм, регион, торговля, развитие, музей.

## The role of tourism in the development of regions

**Summary**

It would be more expedient to use the experience of developed countries in the field of tourism for the development of tourism in Azerbaijan. In addition, the "Strategic Road Map" and state tourism programs prepared by our state give a great impetus to the development of tourism in Azerbaijan. Training of qualified personnel for attracting tourists to the country, organizing regular visits and activities in touristic areas should be taken as a basis.

**Key words:** tourism, region, trade, development, museum.